## KİTABXANAŞÜNASLIQ

**UOT 02 (091); 021**

# AZƏRBAYCANDA KİTABXANA İŞİNİN TƏŞKİLİ VƏ İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

**Nigar N.İSMAYILOVA***

*Məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin istər sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərliyi zamanı kitabxana işinin inkişafi üçün gördüyü işlərdən söz açılır. Onun kitaba və kitabxanalara qayğısı konkret faktların dili ilə diqqətə çatdırılır. Kitabxana işinin hüquqi bazasının formalaşmasında ümummilli liderin xidmətlərindən bəhs olunur.*

**Açar sözlər:** Azərbaycan, Heydər Əliyev, kitabxana işi, Azərbaycan Milli Kitabxanası

**Giriş**. Müasir Azərbaycan tarixinin, mədəniyyətinin bütöv bir qərinəsi, bir əsrlik tarixində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir.

Azərbaycan tarixinə "Heydər Əliyev dövrü" kimi əbədi həkk olunmuş zaman kəsimində ölkəmizin elmi, mədəniyyəti və incəsənəti böyük yüksəliş mərhələsini yaşamışdır. Mədəniyyəti xalqın böyük sərvəti hesab edən ulu öndər "*Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir*", -deyirdi [2, s. 213]. Buna görə də ulu öndər mədəni-mənəvi dəyərlərin qorunması, təbliği və yeni estetik düşüncəyə məxsus əsərlərin yaradılması üçün geniş perspektivləri olan bir sistem formalaşdırdı. XX əsrdə Azərbaycan mədəniyyətinin bütün sahələrinin, o cümlədən kitabxana işinin geniş

* ***BDU-nun Elmi Kitabxanasının direktoru, Kitabxanaşünaslıq kafedrasının dosenti; nigarismilova@bsu.edu.az; ORCİD İD: 0009-0001-1713-4916***

vüsətli inkişafı və əldə etdiyi böyük nailiyyətlər Heydər Əliyevin müstəsna tarixi xidmətlərinin nəticəsində mümkün oldu.

Tarixə nəzər salarkən görmək olur ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Bu mərhələdə milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin inkişafı sahəsində də əldə edilmiş uğurlar önəmli olmuşdur. Kitab və kitabxana işinə yüksək qiymət verən, onu Azərbaycan mədəniyyətinin aparıcı sahəsi kimi dəyərləndirən ulu öndər rəhbərliyinin birinci dövründə kitabxana işinin inkişafına, xüsusilə kənd kitabxana şəbəkəsinin genişləndirilməsinə xüsusi diqqət yetirmişdir. 1960-cı illərdə ləğv edilmiş kənd kitabxanaları bərpa edilmiş, onların maddi-texniki bazası möhkəmləndirilmiş, kadr tərkibi yaxşılaşdırılmışdır. Həmçinin 1974-cü ildə ulu öndərin rəhbərliyi ilə qəbul edilən "Zəhmətkeşlərin tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolu" qərarına əsasən yaradılan şəhər və rayon mərkəzləşdirilmiş kitabxana şəbəkələri o dövr üçün çox əhəmiyyətli idi və bu gün də əhalinin maariflənməsində xüsusi rol oynamaqdadır [1, s. 126]. Hazırda mövcud olan Mədəniyyət Nazirliyinin, Elm və Təhsil Nazirliyinin, AMEA-nın, həmkarlar ittifaqları təşkilatlarının kitabxana şəbəkələri məhz həmin dövrdə bitkin bir sistem kimi formalaşmışdır.

Respublikamız müstəqillik qazandıqdan sonra Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində əsl dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Ulu öndərin ikinci dəfə hakimiyyətə gəlişi kitabxana işinin, kitabxanaların qurtuluş illəri kimi xarakterizə edilə bilər. Məhz həmin dövrdə kitabxanaların kütləvi surətdə bağlanmasının, onların binalarının icarəyə verilməsi, digər məqsədlər üçün istifadə edilməsi, ümumiyyətlə, dövlət kitabxana şəbəkələrinin məhvi prosesinin qarşısı alındı.

1995-ci il sentyabr ayının 29-da Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında 1995-1998-ci illər dövlət mülkiyyətinin özəlləşdirilməsinin dövlət proqramının təsdiq edilməsi haqqında" fərman imzalandı [4]. Bu fərmanın birinci bölməsində özəlləşdirilməsi qadağan olunan müəssisə və obyektlərin siyahısı verilirdi. Siyahıya kitabxanaların daxil edilməsi onların özəlləşdirilməsinin və binalarının digər məqsədlər üçün istifadə edilməsinin qarşısını aldı. Bununla da keçid dövrünün çətinliklərinə baxmayaraq, bir sıra ictimai təşkilatların kitabxanaları istisna olmaqla, Azərbaycan keçmiş SSRİ məkanında dövlət kitabxanalarını bütövlükdə qoruyub saxlayan yeganə dövlət oldu.

Ümummilli liderin kitab və kitabxana işinə diqqət və qayğısının bariz nümunəsi 1995-1997-ci illərdə dörd dəfə Milli Kitabxanaya gəlişidir. O, fəlsəfi mahiyyətə malik geniş nitqində "*Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir*" söyləmişdi [5, s. 160].

Öz şəxsi kitabxanasından 300 nüsxəyədək çox qiymətli kitabı, o cümlədən müqəddəs Həcc ziyarəti zamanı ona bağışlanan "Qurani Kərim"i Milli Kitabxanaya hədiyyə edən Heydər Əliyev bununla tanınmış ictimaiyyət nümayəndələrinə kitabxanaların fondunun zənginləşdirilməsi işində nümunə olmuşdu. Bundan başqa, Ulu Öndərin göstərişi ilə 1997-ci ildən başlayaraq Nazirlər Kabineti hər il Milli Kitabxanaya xarici ədəbiyyat və xarici dövri nəşrlər almaq üçün 5000 ABŞ dolları həcmində vəsait ayırmışdı. Bu gün bu məbləğ hamı üçün kiçik görünsə də, həmin dövrdə Milli Kitabxananın illik büdcəsinin bütövlükdə heç 5 min dollar olmadığını nəzərə alanda, bu zaman bu məbləğin kitabxananın fondunun xarici kitablar və dövri nəşrlərlə komplektləşdirilməsində böyük rol oynadığı daha aydın görünər. Elə bu qayğının nəticəsidir ki, artıq 2000-ci ildə Milli Kitabxanaya daxil olan yeni ədəbiyyatın miqdarı xeyli artaraq 14.780 nüsxəyə çatmış, bunların da 9584 nüsxəsi kitablar olmuşdu.

Keçid dövründə baş verən hadisələrdən daha çox zərər görən mədəniyyət və incəsənət sahələrində təcrübəli siyasətçinin rəhbərliyi ilə ardıcıl addımlar atıldı, kitabxana işinin də ahəngdar inkişafına zəmin yarandı. Mədəniyyət sisteminin möhkəm təməllər üzərində qurulan inkişafı keçid dövrünün çətin sınaqlarından qısa müddət ərzində üzüağ çıxmasını şərtləndirdi. Heydər Əliyevin rəhbərliyi altında dövlətin mədəniyyət siyasətinin hüquqi bazası – qanunvericilik təminatı yaradıldı. Qısa müddət ərzində mədəniyyət sahəsində 10-dan artıq - "Mədəniyyət haqqında" (1996), "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" (1998), "Kitabxana işi haqqında (1998), "Kinematoqrafiya haqqında" (1998), "Memarlıq fəaliyyəti haqqında" (1998), "Milli Arxiv Fondu haqqında" (1999), "Muzeylər haqqında" (2000), "Nəşriyyat işi haqqında" (2000) və s. qanunlar qəbul edildi [3, s. 96]. Eyni zamanda ölkəmizdə mədəni irsin inkişafı, kulturoloji və turizm təhsili, teatr, kino, kitabxana və muzey işi və s. mədəniyyət sahəsinin inkişafını gücləndirən dövlət proqramları qəbul edildi.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununda Milli Kitabxanaya ayrıca bir bölmə həsr olunmuş və ölkə ərazisində dərc olunan çap məhsullarından Milli Kitabxanaya pulsuz məcburi nüsxələrin verilməsi müddəası da məhz ilk dəfə bu qanunla təsbit olunmuşdur. Sovet rejiminin yeritdiyi siyasət nəticəsində müstəqilliyimizin bərpasından sonrakı ilk illərdə Milli Kitabxananın kitab fondunun 80 faizindən çoxu rus dilində ədəbiy-

yatdan ibarət idi. Ona görə də kitab fondunda milli dildə ədəbiyyatın xüsusi çəkisinin artırılması əsas vəzifə kimi qarşıda dururdu. Ulu Öndərin rəhbərliyi ilə XX əsrin 90-cı illərinin ortalarından bu istiqamətdə aparılan məqsədyönlü işlərin nəticəsində artıq 2000-ci ildə fonda daxil olan ədəbiyyatın 90 faizindən çoxu milli dildə olmuşdu. Təbii ki, XX əsrin 90-cı illərinin ortalarından kitab alınması üçün ayrılan vəsaitin getdikcə artması da bu işdə əhəmiyyətli rol oynamışdı.

**Nəticə**. Beləliklə, müstəqillik illərində "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununa və ulu öndərin Azərbaycançılıq fəlsəfi konsepsiyasına əsaslanan Azərbaycan dövlətinin kitabxana siyasəti formalaşdı, kitabxana işi mədəni quruculuğun tərkib hissəsi kimi dövlətin qayğısı nəticəsində uğurlu inkişaf yoluna qədəm qoydu. Həmçinin bu qanun dövlət kitabxana şəbəkəsinin formalaşdırılmasında, kitabxana sahəsinə dair normativ-hüquqi bazanın yaradılmasında, kitabxana işçilərinin sosial müdafiəsinin möhkəmləndirilməsində də mühüm rol oynadı.

Bu gün də xalqımızın milli-mənəvi dəyərlərinin qorunub saxlanması, mədəni irsinin yaşadılması və təbliği, eləcə də onun ümumi mədəni səviyyəsinin və dünyagörüşünün yüksəldilməsi ümdə bir məsələ olub, daim Azərbaycan dövlətinin diqqət mərkəzindədir. Heydər Əliyevin mədəniyyət siyasəti Azərbaycan Prezidenti cənab İlham Əliyevin tərəfindən uğurla davam etdirilir. 2003-cü ildən sonra Azərbaycanda Heydər Əliyevin mədəniyyətimizin inkişafı ilə bağlı ideyaları davamlı olaraq həyata keçirilir. Azərbaycanda mədəniyyətin müxtəlif sahələri – teatr, kino, kitabxana və muzey işinin inkişafı ilə bağlı imzalanan fərman və sərəncamlar, qəbul olunan dövlət proqramları ölkəmizdə mədəniyyətin tərəqqisinə yeni stimul yaratmışdır. Ədəbiyyat və incəsənət xadimlərinə keçirilən yubileylər, verilən dövlət mükafatları və adları, ölkəmizin hər yerində yenicə tikilən və əsaslı təmir edilən teatr, muzey, kitabxana binaları, mədəniyyət sarayları bu sahəyə olan diqqət və qayğının bariz təzahürüdür. Bütün bunlar isə əmin olmağa imkan verir ki, Azərbaycanda Heydər Əliyev irsi daim yaşadılacaq.

Azərbaycan xalqının taleyinə fenomen şəxsiyyət, uzaqgörən siyasətçi, böyük dövlət adamı kimi yazılan Ümummilli Lider Heydər Əliyev mənsub olduğu xalqın etibarlı gələcəyi naminə yorulmadan çalışmış, ölkəsinin tarixində dərin iz qoymuşdur. Bizim nəsil çox xoşbəxtdir ki, Heydər Əliyevlə bir epoxada yaşamaq nəsibimiz oldu və ulu öndərin mədəniyyətimizə, incəsənətimizə, kitabxana işinə göstərdiyi böyük qayğının şahidinə çevrildik.

**ƏDƏBİYYAT**


1. Əhmədov E.Y. Azərbaycanda kitabxana-informasiya işinin hüquqi bazası: Dərs vəsaiti.- Bakı: Bakı Universiteti nəşriyyatı, - 2012, - 216 s.
2. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. – Bakı: Azərnəşr, - 2006.- 312 s.

3. Xələfov A.A. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir. - Bakı, 2009. - 185 s.
4. Xələfov A.A. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin formalaşmasında Heydər Əliyev irsinin rolu // Azərbaycan . -2001. - 10 oktyabr.
5. Tahirov K.M. Dünya milli kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: Dərs vəsaiti. Bakı, Bakı Universiteti nəşriyyatı. - 2013. - 212 s.

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ОРГАНИЗАЦИИ И РАЗВИТИИ БИБЛИОТЕЧНОГО ДЕЛА В АЗЕРБАЙДЖАНЕ

**Нигяр Н.ИСМАИЛОВА**

### РЕЗЮМЕ

В статье рассматривается работа общенационального лидера азербайджанского народа Гейдара Алиева по развитию библиотечного дела в период его руководства Азербайджаном, как в советское время, так и в годы независимости. Его забота о книгах и библиотеках доносится посредством языка конкретных фактов. Отмечены заслуги национального лидера в формировании правовых основ библиотечной деятельности.

**Ключевые слова:** Азербайджан, Гейдар Алиев, библиотечное дело, Национальная библиотека Азербайджана.

## THE ROLE OF HEYDAR ALIYEV IN THE ORGANIZATION AND DEVELOPMENT OF LIBRARY SCIENCE IN AZERBAIJAN

**Nigar N.ISMAYILOVA**

### SUMMARY

The article examines the work of the national leader of the Azerbaijani people Heydar Aliyev on the development of library work during his leadership of Azerbaijan, both in Soviet times and in the years of independence. His concern for books and libraries is conveyed through the language of specific facts. The merits of the national leader in the formation of the legal basis for library activities are noted.

**Keywords:** Azerbaijan, Heydar Aliyev, library work, National Library of Azerbaijan.